# AZƏRBAYCAN | AZERBAIJAN

## USCIRF–RECOMMENDED FOR SPECIAL WATCH LIST

Beynəlxalq Dini Azadlıq üzrə ABŞ Komissiyası (USCİRF) xaricdə din və inanc azadlığı hüququnu müşahidə edən müstəqil, iki partiyanın dəstəklədiyi ABŞ federal hökuməti komissiyasıdır. 1998-ci ilin Beynəlxalq Dini Azadlıq Aktı (IRA) əsasında yaradılan USCİRF, bu tövsiyələri bizim qanunla müəyyən edilmiş mandatımız və Ümumdünya İnsan Haqları Bəyannaməsi və digər beynəlxalq sənədlərdə müəyyən edilmiş standartlara əsaslandırır. Beynəlxalq Dini Azadlıq üzrə ABŞ Komissiyası (USCİRF) ABŞ Dövlət Departamentindən ayrı və fərqli təşkilatdır. 2021-ci il İllik Məruzəsi yerlərdə pozuntuları sənədləşdirən komissarlar və peşəkar heyət tərəfindən hazırlanmış bir illik işin kulminasiyasıdır və siyasət ilə bağlı ABŞ Hökumətinə müstəqil tövsiyələr təmin edir. 2021-ci il üzrə İllik Məruzə 2020-ci ilin yanvar ayından 2020-ci ilin dekabr ayına qədər olan müddəti əhatə edir, hərçənd ki, bəzi hallarda bu zaman çərçivəsindən sonra baş vermiş əhəmiyyətli hadisələr də qeyd edilmişdir. USCIRF barədə ətraflı məlumat üçün, burada vebsaytı ziyarət edə və ya USCIRF ilə birbaşa 202- 523- 3240 nömrəsi vasitəsilə əlaqə saxlaya bilərsiniz.

## ƏSAS TAPINTILAR

2020-ci ildə Azərbaycanda dini azadlıqla bağlı vəziyyət əsasən sabit olaraq qalsa da, Dağlıq Qarabağ və ətraf bölgələrdə yenilənmiş münaqişə zamanı qanun pozuntuları diqqətəlayiq istisna təşkil edir. Azərbaycan hökuməti 2009-cu ildə qəbul edilmiş Dini İnancların Azadlığı Haqqında qanun (din haqqında qanun) vasitəsilə dini fəaliyyətləri tənzimləməyə davam etmişdir. Belə ki, bütün dini icmalar fəaliyyət göstərmək üçün qeydiyyatdan keçməlidir, dini ədəbiyyat və əlaqədar materiallar üçün dövlətin icazəsi tələb olunur və digər müəyyən dini fəaliyyətlərə məhdudiyyətlər tətbiq edilir. 2020-ci ildə Azərbaycan hökumətinin 2 xristian icma daxil olmaqla, 14 dini icmanı dövlət qeydiyyatından keçirdiyi bildirilir. Amma hökumət heç də bütün icmaları qeydiyyatdan keçirmədi - nəhayət bu il qeydiyyatdan keçəcəkləri ilə bağlı ilkin təəssüratlar müsbət olsa da, bəzi yehova şahidləri və lüteranlar qeydiyyatdan keçmədilər. Bu məsələ qeydiyyatdan keçməmiş dini icmalar üçün ciddi narahatlıq mənbəyi olmuşdur. Hökumət bəzi hallarda qeydiyyatdan keçmiş tərəfdaşlarla "birləşməyi" təklif etməklə və ya başqa bir halda keşişin həyatində həftədə bir dəfə iki saat olmaqla ibadətlərinə icazə verilməsi ilə bağlı kiçik, qeydiyyatdan keçməmiş baptist icmasına məktub təmin etməklə bu çətinliyi yüngülləşdirməyə çalışmışdır. Bununla belə, heç bir təklifin hüquqi əsası olmadığı görünür, ona görə də heç bir zəmanətli hüquqi qoruma təklif etmir.

Hökumət icbari hərbi xidmətə mənəvi dəyərlər əsasında etiraza icazə verməməyə davam edib. Azərbaycanın Milli Məclisi hələ də ölkənin konstitusiyasında nəzərdə tutulan və bir parlament üzvü tərəfindən təklif edilmiş alternativ hərbi xidmət yaratmayıb. 2019-cu ildə dini icmalara hüquq mühafizə orqanlarının reydləri olmamış, bununla belə, bəzi həmsöhbətlər mümkün fəsad qorxusu ilə öz fəaliyyətlərinin bəzilərini məhdudlaşdırdıqlarını bildirmişlər.

Hökumət öz dini fəaliyyətlərinə görə fərdləri həbsə atmağa davam edib. Ölkələrindəki siyasi məhbusların siyahılarına malik olan yerli qeyri-hökumət təşkilatları (QHT-lər) mövcud məhbusların 43 - 51-inin dini fəallar olmasını təxmin edir. 2020-ci ildə iqtidar öz həbs müddətini tam bitirmiş şiə imamı Sərdar Babayev və COVİD-19 təhlükəsi ilə bağlı azadlığa buraxılmış iki şəxs daxil olmaqla, ən azı iki dini məhbusu azad edib. Müsəlman Birliyi Hərəkatının üzvləri (MBH) hökumətin məhkəməyə çağırmaqla, mübahisəli və ya siyasi motivasiyalı səbəblərlə tutmaqla və həbs etməklə onları artan təzyiqə məruz qoyduğunu bəyan edib. Bir dəfə dövlət qurumları MBH-nın üzvü olduğu iddia edilən Elvin Muradovu həbsdə olan MBH lideri Taleh Bağırzadə haqqında yazdığı şerlərə və mahnılara görə saxlamış və sonra həbs etmişdir. İl ərzində Rəhim Axundov xristian, ev kilsəsində keşiş olmasına görə ayrı-seçkiliyə məruz qalması və zorla Milli Məclis Aparatında işçi vəzifəsindən çıxarılması ilə bağlı olaraq məhkəməyə müraciət edib. Yanvar ayında hakim onun iddiasını qəbul etmədi və müvafiq olaraq iyun və sentyabr aylarındakı Bakı Appelyasiya Məhkəməsi və Ali Məhkəmənin qərarlarını qüvvədə saxladı.

Sentyabrın sonunda Dağlıq Qarabağ və ətraf bölgələrdə intensiv döyüşlərin yenidən alovlanması, həmin ərazilərdə erməni ibadət yerləri və digər dini məkanların konservasiyası və qorunması ilə bağlı ciddi narahatlıqlar yaratdı. Oktyabr ayında Azərbaycan hərbi qüvvələrinin Şuşadakı Qazançı kilsəsini iki dəfə hədəf aldığı və zərbə endirdiyi, nəticədə binaya ciddi ziyan dəydiyi və ehtimal ki, bunun müharibə cinayəti təşkil etdiyi xəbər verilir. Azərbaycan iddia edir ki, savaş zamanı erməni hərbi qüvvələri müxtəlif dini və mədəni məkanları hədəf alaraq, onlara zərər yetirmişdir. 10 noyabr tarixli atəşkəsdən və bəzi ərazilərin Azərbaycana verilməsindən sonra, media qurumları erməni qəbiristanlığı və başdaşılarının göründüyü kimi təzəlikcə vandalizmə və dağıntıya məruz qalmasını sənədləşdiriblər. Eyni ay ərzində Azərbaycan Prezidenti İlham Əliyev xristan kilsələrini qorumaq vədi vermiş və "Azərbaycan xristianlarına" o ibadət yerlərinə girmək imkanı veriləcəyini qeyd etmişdir.

## ABŞ HÖKUMƏTİNƏ TÖVSİYƏLƏR

- Beynəlxalq Dini Azadlıqlar Aktına (IRFA) əsasən dini azadlıqların ciddi şəkildə pozulmasında iştirak etməsinə və ya buna dözümlülük göstərməsinə görə Azərbaycanı, ABŞ Dövlət Departamentinin Xüsusi Müşahidə Siyahısına daxil etmək tövsiyə olunur;

- Din haqqında 2009-cu il qanununu beynəlxalq insan haqları standartlarına, eləcə də Avropa Şurasının Venesiya Komissiyasının və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) 2012-ci il üzrə tövsiyələrinə uyğunlaşdırmaq üçün yenidən nəzərdən keçirməsi üçün Azərbaycan hökuməti ilə işləmək tövsiyə olunur;
- Azərbaycan hökumətinin, beynəlxalq tərəfdaşlarla birlikdə, Avropa Şurası qarşısında, beynəlxalq insan haqları və Azərbaycanın konstitusiyası çərçivəsində öhdəliklərinə uyğun olaraq alternativ hərbi xidmət yaratmasına və mənəvi dəyərlər əsasında hərbi xidmətə etiraza icazə verməsinə köməklik göstərmək tövsiyə olunur; və
- Dağlıq Qarabağ və ətraf bölgələrdə ibadət yerlərini və digər dini və ya mədəni obyektləri bərpa etmək, konservasiya etmək və qorumaq üçün ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) və Azərbaycandakı ABŞ Səfirliyinə vəsait ayırmaq tövsiyə olunur;

ABŞ konqresi aşağıdakıları etməlidir:

- Azərbaycanda dini azadlığın və daha geniş insan haqları pozulması hallarının, o cümlədən MBH-a qarşı rəftarın araşdırılması üçün ictimai dinləmələr keçirməli; əlaqədar narahatlıqları birbaşa olaraq Azərbaycan Səfirliyi və digər hökumət rəsmiləri qarşısında qaldırmalı; və bütün vicdan məhbuslarının buraxılmasını təşviq etməlidir.

## ƏSAS USCIRF RESURSLARI VƏ FƏALİYYƏTLƏRİ

- *Ölkə ilə bağlı yeniləmə:* Azərbaycanda Dayanmış İrəliləyiş
- *Məsələnin Yenilənməsi:* Yehova Şahidlərinə Qarşı Qlobal Təqib
- *Müsahibə:* Vicdan Məhbuslarının Azad Edilməsi Ehtiyacı Hər Zamankından Daha Təcilidir (*Turan*-da)
- *Komissarın Deleqasiyasının Səfəri:* Bakı və Quba, Fevral 2020

## Ümumi məlumat

10,2 milyonluq Azərbaycan əhalisinin təxminin 96 faizinin müsəlman olması təxmin olunur; Azərbaycan hökumətinin təxmininə əsasən əhalinin 65 faizi şiə, 35 faizi isə sünnidir. Yerdə qalan 4% isə ateistlər, erməni apostol kilsəsinin üzvləri, bəhailər, katoliklər, gürcü pravoslav kilsəsinin üzvləri, Krişna Düşüncəsi Beynəlxalq Təşkilatının üzvləri, yehova şahidləri, yəhudilər, molokanlar, protestantlar, rus pravoslavlardan ibarətdir.

Azərbaycan, öz konstitusiyasında din ilə dövlətin ayrı olduğunu irəli sürən dünyəvi bir dövlətdir. Konstitusiya vicdan azadlığını qorusa da və “hər hansı dinə fərdi və ya digərləri ilə birlikdə əməl etmək və ya heç bir dinə əməl etməmək və dinə aid inancları ifadə etmək və yaymaq” hüququnu tanısa da, hökumət reallıqda 2009-cu ilin Dini İnancların Azadlığı haqqında qanun, inzibati məcəllə və cinayət məcəlləsi vasitəsilə belə haqları məhdudlaşdırıb.

## Dövlətin Dini Tədbirlərə və Ədəbiyyata Nəzarəti

Azərbaycan hökuməti ən böyük dini qrup olan şiələrin, eləcə də sünnilərin və qeyri-müsəlmanların dini tədbirlərinə geniş ölçüdə nəzarət edir. Hökumət, “ənənəvi” və “qeyri-ənənəvi” hesab etdiyi dinlər arasında fərq qoyur, birinci kateqoriyada olanlara üstünlük verməklə yanaşı, ikinci kateqoriyada olanların - yəni yehova şahidlərinin, protestantların və digərlərinin işlərinə müdaxilə edir. Xüsusilə, hökumət müstəqil müsəlmanları öz iqtidarına və ya milli təhlükəsizliyə qarşı potensial təhlükə mənbəyi kimi qəbul edir və mütəmadi olaraq “arzu olunmayan [belə] dini qrupların təsirini qarşılamaq və məhdudlaşdırmaq” üçün mütəmadi olaraq siyasətlər tətbiq edir. Bu məqsədlə, hökumət həm Dini Qurumalarla İş üzrə Dövlət Komitəsi (DQİDK), həm də Qafqaz Müsəlmanları İdarəsi vasitəsilə islami ayinlərə ciddi şəkildə nəzarət edir və tənzimləyir.

Bir çox qeyri-müsəlman dini icmalar son illər ərzində dini azadlıq sahəsində ümumi yaxşılaşmış inkişaf ilə bağlı məlumat versələr də, onların fəaliyyətləri dövlət tərəfindən təsdiqlənməlidir. Dini azlıqlar tez-tez qeydiyyatdan keçməklə bağlı problem yaşayır, çünki hər bir icmanın qeydiyyatdan keçirilməsi üçün əvvələ ən azı 50 yetkinlik yaşına çatmış təsisçi üzvü olmalıdır, bundan başqa, məmurlar onların qeydiyyatına manеə yaratmaq üçün başqa subyektiv təlimatlar tətbiq ediblər. Məcburi qeydiyyatla yanaşı, dini icmanın fəaliyyətlərini qanuni, qeydiyyatdan keçmiş ünvan ilə məhdudlaşdırma, xarici vətəndaşların “dini təbliğat”la və ya missioner fəaliyyəti ilə məşğul olmasının qadağan olunması; DQİDK-nin bütün dini ədəbiyyat və əlaqədar materialların təsdiq etməsi tələbi kimi qanunun digər müddəaları da bu icmaların öz dinlərini və inanclarını azad şəkildə yaşamasına mane olmağa xidmət edir.

## Dağlıq Qarabağ Münaqişəsi

2020-ci ilin sentyabr ayında Dağlıq Qarabağ və onu əhatə edən ərazilərlə əlaqədar Ermənistan ilə Azərbaycan arasında uzunmüddətli mübahisə ilə bağlı olaraq münaqişə yarandı. Münaqişə mahiyyət etibarilə əsasən ərazi və etnik münaqişə olsa da, onda iştirak edən və ya birbaşa olaraq onun təsirinə məruz qalmış bəzi insanlar, bu münaqişənin qismən dini fərqlərlə bağlı

olaraq yarandığını və ya daha da qızışdırıldığını bildirmişlər. Oktyabrda iki fərqli hadisə zamanı Azərbaycanın hərbi qüvvələrinin Şuşadakı Qazançı kilsəsinə yüksək dəqiqliyə malik raket atdığı və dam daxil olmaqla, konstruksiyanın müxtəlif hissələrinə ciddi zərər dəydiyi bildirilir. Human Rights Watch müəyyən edib ki bu hücumlar ehtimal ki, qəsdən törədilib və ona görə də araşdırılması və icra olunması zəruri olan müharibə cinayəti təşkil edir.

Müharibə dövründə və noyabr ayındakı atəşkəsdən dərhal sonra bir çox yerli və beynəlxalq müşahidəçilər dini və digər mədəni obyektlərin qorunması ilə bağlı öz narahatlıqlarını ifadə etmiş və xüsusi olaraq, Azərbaycanın nəzarətinə keçmiş erməni kilsələrinin, monastrlarının və qəbiristanlıqların qorunması ehtiyacını vurğulamışlar. Hesabat dövrünün sonuna doğru, belə ərazilərdən bəzilərinin, məsələn Hadrutdakı erməni kilsəsinin qəbiristanlığının vandalizmə məruz qalması ilə bağlı sübut əldə olunub. İlin sonunda Azərbaycan hökuməti ən azı iki azərbaycanlı əsgərin - Arzu Hüseynov and Ümid Ağayevin Xocavənd rayonundakı bir kənddə erməni qəbir daşlarının dağıdılması ilə əlaqədar ittiham olunması ilə bağlı açıqlama yaydı.

## ƏSAS ABŞ SİYASƏTİ

Öz ikitərəfli əlaqələrində ABŞ və Azərbaycan, Avropanın enerji təhlükəsizliyi, ticarət və sərmayə, eləcə də terrorçuluq və transmilli təhlükələrə qarşı birgə mübarizəni prioritet hesab etməyə davam ediblər. ABŞ həmçinin ATƏT-in Minsk Qrupu çərçivəsində Fransa və Rusiya ilə yanaşı, həmsədr ölkə kimi Dağlıq Qarabağ Münaqişəsinin sülh yolu ilə həllini axtarmağa davam edib. Sentyabrın sonlarında münaqişənin qızışmasından sonra ABŞ gücdən istifadəni pisləmiş və ədavətə son qoymaqla bağlı tərəflərə çağırış etmişdir. Oktyabr ayında Dövlət Katibi Maykl R. Pompeo hər iki tərəfi döyüşləri dayandırmaq və danışıqları bərpa etməyə sövq etmək üçün ayrı-ayrılıqda Ermənistan və Azərbaycanın xarici işlər nazirləri ilə görüşüb. ABŞ-ın görüşdən bir neçə gün qüvvəyə minmiş atəşkəsdə vasitəçilik etməsinə baxmayaraq, bu atəşkəsin qüvvəyə mindikdən cəmi bir neçə dəqiqə sonra pozulduğu bildirilir.

Dövlət Departamenti il ərzində Azərbaycanda bir sıra dini azadlıq problemlərinin olduğunu qeyd edib. Beynəlxalq Dini Azadlıq üzrə Xüsusi Səlahiyyətli Səfir Samuel D. Braunbek dini mənsubiyyətinə görə Rəhim Axundovun Milli Məclis aparatından çıxarılması xəbəri ilə bağlı öz narahatlığını ifadə etmiş, bütün dini məhbusları azad etməsi üçün Azərbaycana təzyiq etmiş və bu ölkəni Dağlıq Qarabağdakı dini məkanları qorumağa çağırmışdır.